◆ Azərbaycan Prezidenti İlham Əliyevin Misirə işgüzar səfəri

# SÜLH NAMİNƏ

## Şarm əl-Şeyx şəhərinin beynəlxalq aeroportunda qarşılanma

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın və Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisinin dəvəti ilə Yaxın Şərq Sülh Sammitində iştirak etmək üçün oktyabrın 12-də Misirə işgüzar səfərə gedib.**

AZƏRTAC xəbər verir ki, Şarm əl-Şeyx şəhərinin beynəlxalq aeroportunda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidentini Misirin gənclər və idman naziri Əşraf Subhi və digər rəsmi şəxslər qarşıladılar.

